İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün,
çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir
gənclik üçün, **düşünərək yaşayanlar üçün**, xoşbəxt bir
ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

parlaq imzalar

Kitabın sahibi: ______________________________

Oxu tarixi: ______________________________

# Adı Leylaydı

(şeirlər)

PƏRVİZ ARİF

| | |
|---|---|
| Buraxılışa məsul: | Nurman TARİQ |
| Redaktorlar: | Rəşad NAĞI MUSTAFA<br>Elşən MEHDİ |
| Korrektor: | Turac ELDARQIZI |
| Yekun oxunuş: | Amin SÜKUT |
| Bədii və texniki tərtibat: | İsmayıl SÜLEYMANLI<br>Zülfi XƏLİLOV |
| Üz qabığının dizaynı: | Azər ƏSGƏRZADƏ |

**Pərviz Arif**
**ADI LEYLAYDI**

Bakı, “Parlaq İmzalar” Nəşriyyatı – 2018, 96 səh.

**© Pərviz Arif / 2018**
**© Parlaq İmzalar MMC / 2018**

Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 66
Yeni İmzalar Seriyası – Şeir | 2

ISBN 978-9952-5251-0-6
9789952525106

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
fb.com/parlaqimzalar
0552595972 / 0559697259

# Mündəricat


Əcəl son etirafdır ____ 11
Çünki ____ 12
Günəş qürub edəndə ____ 13
İnaqurasiya ____ 14
Bir ağac ömrü ____ 16
Qoca nəqqaş ____ 18
Sağ ol de ____ 19
Beş il əvvəl ____ 20
İsminin altı halı ____ 21
Xülasə ____ 22
Unutmadım da ____ 23
Romantik gündəm ____ 24
Arif olsaydım əgər mən ____ 26
Dörd il keçib ____ 27
Fələstinli uşaq ____ 28
Bu toyun elegiyası ____ 30
Gizlənir ____ 32
Gözüyumulu ____ 33
Gözüm ____ 34
Lövbər ____ 36
Mənəm o ____ 37

Ənəlhəqq ______________________________38
On doqquzuncu hərf ______________________39
Bəzz qalası ____________________________40
İmsak ________________________________41
Siqaret kötüyü__________________________42
Rum rəqəmiylə on birinci__________________44
Qar adamı _____________________________45
Qırmızı saçlar __________________________46
Depressiya ____________________________48
Adam ________________________________49
Sən də mənim kimisən ____________________50
Yeddi rəngin arasında ____________________52
Sevgilərlə______________________________53
Unut _________________________________54
Valentin _______________________________55
Nostalgiya _____________________________56
Oxucu_________________________________58
Epiqraf ________________________________60
Epizodlarda ____________________________61
İmitasiya (yenə o bağ olaydı) _______________62
Yavaş-yavaş ____________________________64
Üç yuxu _______________________________65
Rekviem________________________________66
Xub deyil _______________________________67
Sözüm yoxdur____________________________68
Gəldim-getdim ___________________________69
Bir anlıq şeir ____________________________70
Yeni il proqnozları ________________________72

Sonuncu günün darıxmağı ___________________74
Vaxtında gərək ______________________________75
Keçmiş komandir ____________________________76
Quyudakı səs _______________________________78
Ölüm qorxusunu yaşayanlar____________________79
Lazımdı ____________________________________80
Oxşar adamlar ______________________________82
Sənin dostluq həvəsin _________________________83
Sülhün qanadları ____________________________84
Düşünənlər _________________________________85
Sən kim, mən kim... __________________________86
Rəylər ______________________________________87

*Bu kitabı ailəmə ithaf edirəm*

## *Əcəl son etirafdır*

Darıxmaq hissi başlar, sözün şirin yerində,
Özünlə rastlaşarsan şeirlərin birində.

Qəfil cılızlaşarsan səadətin gözündə,
Ürəkdən ağlayarsan xəyalların dizində.

İtirdiyin saf eşqi gəzərsən hər qadında,
Baxışların taparsan nə vaxtsa övladında.

Zamanla büdrəyərsən əzablı dərd önündə,
Ömürdən əl çəkərsən sonuncu ad günündə.

Gələnlər ağlayarlar məzarının başında,
Sən onlara ümid ver, gülümsə başdaşında.

Əcəl son etirafdır hər insanın dilində,
Ölüm hədiyyəmizdir yaşam müqabilində.

## *Çünki*

Çıxa bilməz hələ ağ günlərə gücsüz bəxtim,
Qara eynəkli bir insandı, tanınmır çünki.

Süzülür göz yaşım artıq yerə buz şəklində,
Yanağım isti öpüşlərlə qızınmır çünki.

Gəl bu əmlakı sənədləşdir, özün sahib çıx,
Ürək ordan bura hər dəfə daşınmır çünki.

Qürurumdan mən uduzdum, məni tez-tez qınama,
Hər əlacsız bəşər Allaha sığınmır çünki.

Mən vərəqlərdə yaşatdım sınan eşq ağrısını,
Yerə çırpsan da kağız parçası sınmır çünki.

Bu qəzəllər o qızın almasa könlün, Pərviz,
Özünə başqa sənət tap, bu alınmır çünki.

***Günəş qürub edəndə***

Qəfil kükrəyəcək səssiz oturan,
Özünü didəcək, dizinə vuran.
Ədalət yolunda yarıda duran,
“Şərəf zirvəsi”nə çatası deyil.

Atasız bir uşaq qayğısız qalar,
Acizlik üzünə qaranlıq salar.
Ana balasının “atası” olar,
Ana balasını atası deyil.

Oyun qurtaranda vəzir, piyadə,
Şahla bir qutuya qoyular sadə.
Əcəl gəlməyincə tələs, məbadə,
Kimsə bu oyunu qatası deyil.

Sakitcə gedirəm, yolumu tapıb,
Daha bu günahlar ruhuma hopub.
Bir “fəryad küləyi” içimdə qopub,
“Günəş” çıxmayınca yatası deyil.

## *İnaqurasiya*

And ola bütün gözəlliklərə,
dağa, çaya, dənizə,
musiqiyə, şeirə, sözə.
And ola kişini tərk edən ilk qadına
və onun
müqəddəs beş hərflik adına.

And ola gözlərindəki səmaya,
qaşlarındakı qövsə,
Afroditaya, Heraya, Zevsə.

And ola yanağındakı qışa,
baxışındakı Günəşə,
Janna Darkın yandırıldığı atəşə.

And ola pravoslav kilsəsindəki rahibin xaçına
Həzrəti Məryəmin yad nəfəsi dəyməyən saçına.

And ola qar dənələrindən gizlənən sərçənin
məsumiyyətinə,
evsiz uşaqların qucaq həsrətinə,
and ola güllərin ən boynubükük olanına,
bütün tənhaların “təklik gözəldir” yalanına.

And ola səhranın gördüyü son yağışa,
yarpağın hiss etdiyi ilk küləyə,
and ola içimdəki şeytana,
üzümdəki mələyə,
və sonda
and ola Allaha,
mən Allah deyiləm,
məndən bağışlanmaq istəmə.